

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır


# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 232 (21.384)

26 noyabr 2015-ci il, cümə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 25-də ISESCO-nun baş direktoru Əbdüləziz Osman əl-Tuveycrini qəbul edib.

ISESCO-nun baş direktoru Əbdüləziz Osman əl-Tuveycri rəhbərlik etdiyi təşkilatın XII Baş konfransının və İcraiyyə Şurasının növbəti iclasının Bakıda keçirilməsinə göstərdiyi dəstəyə və yüksək qonaqpərvərliyə görə Prezident İlham Əliyevə minnətdarlığını bildirib. Qonaqların Bakı ilə ilk tanışlıqdan valeh olduqlarını vurğulayan Əbdüləziz Osman əl-Tuveycri paytaxtda gedən sürətli inkişaf proseslərinin onlarda dərin təəssürat yaratdığını deyib.

ISESCO-nun XII Baş konfransının və İcraiyyə Şurasının növbəti iclasının Bakıda keçirilməsinin önəmini vurğulayan dövlətimizin başçısı yüksək səviyyəli qonaqların ölkəmizlə yaxından tanış olmaları üçün tədbirin yaxşı imkan yaratdığını deyib.

Görüşdə Azərbaycan ilə ISESCO arasında əməkdaşlığın uğurla inkişaf etdiyi bildirilib, bu əməkdaşlığın daha da genişləndiriləcəyinə əminlik ifadə olunub. Söhbət zamanı əməkdaşlığımızın perspektivləri ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparılıb.



## Heydər Əliyev Muzeyində növbəti açıq dərs

*Naxçıvan şəhərindəki Heydər Əliyev Muzeyində "Naxçıvan" Universiteti tələbələrinin iştirakı ilə "Ulu öndər Heydər Əliyev və müstəqil Azərbaycan" mövzusunda açıq dərs keçilib.*

Muzeyin bələdçisi Hicran Bədəlova açıq dərsdə bildirib ki, ulu öndər Heydər Əliyevin bütün həyat və fəaliyyəti Azərbaycanla bağlı olub. Mənalı ömrünü xalqımızın nicatına həsr etmiş dahi şəxsiyyət Azərbaycan dövlətçiliyinin siyasi-ideoloji əsaslarını yaradıb, ölkəmizin müstəqilliyinin əldə olunması, qorunması və inkişaf etdirilməsində misilsiz xidmətlər göstərib. Respublikamıza rəhbərliyinin hər iki dövründə Azərbaycanı düşdüyü ağır vəziyyətdən xilas edərək inkişaf yoluna çıxarıb. Buna görə də müstəqil Azərbaycan ümummilli lider Heydər Əliyevin şah əsəridir.

Qeyd olunub ki, ötən əsrin sonlarında Azərbaycan öz dövlət müstəqilliyini bərpa etsə də, bu müstəqilliyimiz xeyli çətinliklərlə qarşılaşıb.

Ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə 1990-1993-cü illərdə Naxçıvandan başlanan müstəqillik yolu Azərbaycanın siyasi mühitində aparıcı qüvvəyə çevrilərək milli dövlətçiliyimizin bərpası istiqamətində qəti addımların atılmasına gətirib çıxarıb. Dahi şəxsiyyətin təşəbbüsü və rəhbərliyi ilə Naxçıvan Muxtar Respublikasında qəbul olunan tarixi qərarlar müstəqillik yolunda irəliləyən Azərbaycanın dövlətçilik tarixində mühüm yer tutur.



Vurğulanıb ki, 1993-cü ilin iyun ayında xalqın təkidli tələbi ilə ikinci dəfə siyasi hakimiyyətə qayıdan ulu öndərimizin qətiyyəti və əzmkarlığı sayəsində ölkə parçalanmaqdan, məhv olmaqdan qurtulub. Onun dühasının qüdrəti sayəsində Azərbaycanda siyasi və milli-ideoloji birliyin təməli qoyulub, dövlətçilik ənənələri milli düşüncə tərzinə çevrilib. Dövlət quruculuğu sahəsində əldə olunmuş nailiyyətlər, qanunların aliliyinə söykənən vətəndaş cəmiyyətinin qurulması və sair bu kimi uğurlar Heydər Əliyev dühasının bəhrələridir. Məhz dahi şəxsiyyətin fəaliyyəti nəticəsində Azərbaycan Şərqlə Qərb arasında mühüm rola malik olmaqla yanaşı, dünyanın ən dinamik inkişaf edən ölkələrindən birinə çevrilib. Azərbaycanın hərtərəfli inkişafı onun dünya ölkələri arasında böyük söz sahibi olmasına, nüfuzunun artmasına səbəb olub. Bütün bu nailiyyətlərə isə Heydər Əliyev ideyalarının uğurla davam etdirilməsi nəticəsində nail olmuşuq.

Sonra tələbələr ümummilli lider Heydər Əliyevin həyat və fəaliyyətini əks etdirən eksponatlara baxıblar.

*Muxtar respublikada nail olunmuş və dinamik xarakter almış sosial-iqtisadi inkişaf həyatın bütün sahələrində mühüm yeniliklərlə özünü göstərməkdədir.*

## Smartkarttipli sayğacların quraşdırılması davam etdirilir

Əhaliyə göstərilən müxtəlif xidmətlərin müasir tələblər səviyyəsində qurulması, yeni texnologiyaların tətbiqinin diqqət mərkəzində saxlanılması insanların həyat tərzini xeyli yaxşılaşdırıb. Əhalinin etibarlı və fasiləsiz elektrik enerjisi və mavi yanacaqla təmin olunması üçün həyata keçirilən tədbirlər də bu istiqamətdə görülən işlərin tərkib hissəsidir. Məlumdur ki, bu ildən etibarən Naxçıvan şəhərində smartkarttipli elektrik və qaz sayğaclarının quraşdırılmasına başlanılıb. Qeyd edək ki, bu sayğacların əsas xüsusiyyəti abonentlərin elektrik enerjisi və təbii qazla təminatını öncədən ödəniş etməklə həyata keçirməkdən ibarətdir. Bu həm elektrik enerjisi və təbii qaz itkisinin qarşısını alır, həm də həmin yanacaq növlərindən qənaətlə istifadəni təmin edir.

Naxçıvan Muxtar Respublikası Dövlət Energetika Agentliyindən aldığımız məlumata görə, cari ilin iyul ayından Naxçıvan şəhərində smartkarttipli elektrik sayğaclarının quraşdırılması davam etdirilir. Paralel olaraq əhali arasında maarifləndirici tədbirlər aparılır, sayğaclardan istifadə və onların üstün cəhətləri izah olunur. İlkin olaraq Naxçıvan şəhərinin Heydər Əliyev prospektində, Əziz Əliyev, "Təbriz", Atatürk, "İstiqlal" küçələrində, "Çənlibel", "Qoçüstü" məhəllələrində, Əliabad qəsəbəsində yerləşən təmir edilmiş ictimai yaşayış binaları yeni sayğaclarla təchiz edilib. 320-si noyabr ayında olmaqla, ümumilikdə, 8620 ədəd sayğac quraşdırılıb.

Əhali qrupu üzrə təbii qaz istehlakçılarının mavi yanacaqdan müasir standartlara cavab verən texnologiyalar vasitəsilə istifadəsi məqsədilə Naxçıvan şəhərində ön ödənişli smartkarttipli qaz sayğaclarının da quraşdırılması davam etdirilir. "Naxçıvanqaz" İstehsalat Birliyindən aldığımız məlumata görə, 71-i noyabr ayında olmaqla, ümumilikdə, Naxçıvan şəhərində 7787 ədəd sayğac quraşdırılıb. Sayğacların kənar müdaxilələrdən mühafizəsi üçün qutular alınıb. Sayğacların hər biri Naxçıvan Muxtar Respublikası Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsində qeydiyyatdan keçirilib.

## Kəngərli rayonunda əmək yarmarkası keçirilib

İşaxtaran vətəndaşların, xüsusilə də gənclərin sosial müdafiəsinin gücləndirilməsi, onların münasib işlə təmin olunmaları məqsədilə Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Məşğulluq Xidməti tərəfindən bir sıra aktiv məşğulluq tədbirləri həyata keçirilir. Bu tədbirlərin davamı olaraq, Kəngərli rayonunda növbəti əmək yarmarkası təşkil edilib.

Yarmarkada rayon Məşğulluq Mərkəzinin direktoru Səxavət Həsənov çıxış edərək rayon əhalisinin məşğulluğu istiqamətində görülən işlərdən danışıb. Qeyd edilib ki, bir insanın əmək fəaliyyəti, məşğulluğu təkcə onun və ailəsinin maddi tələbatının ödənilməsinin təminat vasitəsi kimi dərk olunmayıb, daha geniş anlamda, ümumən, cəmiyyət və məmləkət üçün faydalı olan, daim yeniliyə, iqtisadi irəliləyişə xidmət edən bir proses kimi dəyərləndirilib. Bu mənada, əmək fəaliyyəti ilə məşğul olan insan bütün dövrlərdə və bütün cəmiyyətlərdə ictimai rəğbətin dəyişməyən ünvanı olub.

Bildirilib ki, mərkəz tərəfindən işaxtaran vətəndaşların əmək bazarına inteqrasiyasını asanlaşdırmaq və sürətləndirmək məqsədilə aktiv məşğulluq tədbirlərinin təkmilləşdirilməsi istiqamətində məqsədyönlü işlər aparılır.

Kəngərli Rayon İcra Hakimiyyəti başçısının müavini Hacıəddin Mehbalıyev belə tədbirlərin rayonda fəaliyyət göstərən qurumların ixtisaslı kadrlarla təminatında mühüm rolu olduğunu deyib. O bildirib ki, ötən il rayonda 237 nəfər, bu ilin on ayında isə 219 nəfər ixtisasına uyğun işlə təmin edilib. Ümumiyyətlə, muxtar respublikada, eləcə də Kəngərli rayonunda yeni iş yerlərinin açılması, infrastrukturun ən müasir tələblər səviyyəsində qurulması sosial rifahın təmin olunmasına müsbət təsir göstərib. Əmək potensialının keyfiyyətcə yüksəldilməsi, layiqli əməyin təminatı, iş yerlərində sağlam və təhlükəsiz əmək şəraitinin təmin edilməsi qarşıda duran əsas vəzifələrdəndir.

Sonra yarmarkaya gələnlər boş iş yerləri ilə tanış olublar. 15 təşkilatdan 81 boş iş yerinin çıxarıldığı yarmarkada 16 nəfərə işə göndəriş verilib.

**Xəbərlər şöbəsi**

## Səyyar və elektron xidmətlərin göstərilməsi daşınmaz əmlakın qeydiyyatını asanlaşdırıb

*2014-cü ilin yekunları və qarşıda duran vəzifələrə dair keçirilmiş müşavirədə Ali Məclisin Sədri tərəfindən aidiyyəti qurumlara müvafiq xidmətlərin səyyar qaydada göstərilməsinin təmin edilməsi ilə bağlı verilən tapşırıqlar vətəndaşlara göstərilən xidmətlərin səviyyəsinin yüksəldilməsində mühüm rol oynamış və oynamaqdadır.*

Bu istiqamətdə Naxçıvan Muxtar Respublikası Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Komitəsi tərəfindən də məqsədyönlü tədbirlər həyata keçirilir. Belə tədbirlər sırasında səyyar xidmətin təşkili də var. Bu məqsədlə komitəyə "NAZ-Lifan – 6401" markalı minik avtomobili alınmış və müvafiq avadanlıqlarla təchiz edilərək mobil ofis halına gətirilmişdir. Səyyar xidmətin göstərilməsi üçün komitənin mərkəzi aparatından və rayon idarələrindən mütəxəssislər cəlb edilmişdir.

Səyyar xidmət zamanı vətəndaşlara daşınmaz əmlak üzərində əvvəllər yaranmış hüquqlarla bağlı verilmiş mülkiyyət sənədlərinin – torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamələrin, dövlət aktlarının, qeydiyyat vəsiqələrinin daşınmaz əmlakın dövlət reyestrindən çıxarışla əvəz edilməsi və digər xidmətlər göstərilir. Vətəndaşların ərizələri yaşadıqları ərazidə qəbul olunaraq məlumat bazası ilə dəqiqləşdirilir. Qəbul edilmiş sənədlər komitənin rayon qurumları tərəfindən elektron sistemə daxil edilir, texniki sənədlər hazırlanır. Mülkiyyət obyektləri daşınmaz əmlakın dövlət reyestrində qeydiyyata alınır, çıxarışlar hazırlanır və qısa müddət ərzində yerlərdə vətəndaşlara çatdırılır.

Səyyar xidmət zamanı ahıl, sağlamlıq imkanları məhdud insanlara onların yaşadıqları ünvanlarda xidmət göstərilir. Qeyd etmək lazımdır ki, əhaliyə səyyar xidmətlərin göstərilməsi muxtar respublikada daşınmaz əmlak bazarının aktivləşməsinə, daşınmaz əmlakın iqtisadi proseslərə cəlb olunmasına böyük təkan verir. Bundan başqa, səyyar xidmətin təşkili yerlərdə vətəndaşların müraciətlərini operativ şəkildə cavablandırmağa, vaxta qənaət etməyə, insanların şəhər və ya rayon mərkəzlərinə getmədən müraciətlərinin yerində və qısa zamanda həll edilməsinə imkan yaratmışdır.

Səyyar xidmətin planauyğun və operativ təşkili məqsədilə hər ay üçün iş qrafiki tərtib edilir, rayon icra hakimiyyətlərinə göndərilir, xidmət göstəriləcək ünvanlarda 5 gün əvvəl elanlar vurulması təmin edilir və sakinlər arasında maarifləndirmə işləri aparılır. 2015-ci il yanvarın 15-dən noyabrın 1-dək muxtar respublika üzrə 68 kənddə 1262 vətəndaşa daşınmaz əmlakın qeydiyyatı ilə bağlı xidmətlər göstərilib. Bu rəqəm həm də onun göstəricisidir ki, vətəndaşların daşınmaz əmlakın qeydiyyatına marağı getdikcə artmaqdadır.

Daşınmaz əmlak və torpaq məsələləri üzrə müraciətlərin çoxluğunu nəzərə alsaq, səyyar xidmətlə yanaşı, elektron xidmətlərin də böyük əhəmiyyəti var. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Naxçıvan Muxtar Respublikasında dövlət orqanlarının elektron xidmətlər göstərməsinin təşkili haqqında" 2011-ci il 15 iyul tarixli Fərmanından irəli gələn vəzifələrin yerinə yetirilməsi məqsədilə Naxçıvan Muxtar Respublikası Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Komitəsi tərəfindən əhaliyə göstərilən elektron xidmətlərin yüksək səviyyədə təmin olunması daim diqqət mərkəzində saxlanılır, elektron poçt ünvanına edilən müraciətlər operativ surətdə cavablandırılır. Hazırda komitə fəaliyyət istiqamətləri üzrə 21 adda elektron xidmət göstərir. Vətəndaşların təklif edilən elektron xidmətlərdən rahat istifadəsini təmin etmək məqsədilə xidmətlər komitənin ***www.emlak.nakhchivan.az*** portalına yerləşdirilmiş və ***e-hokumet.nmr.az*** elektron hökumət portalına inteqrasiya olunmuşdur. Vətəndaşların göstərilən elektron xidmətlərə marağının nəticəsidir ki, cari ilin ikinci yarısında komitənin elektron xidmətlərindən 51 fiziki və hüquqi şəxs yararlanmışdır. Yaxın gələcəkdə komitənin fəaliyyət istiqamətləri üzrə yeni elektron xidmət növlərinin işə salınması da nəzərdə tutulmuşdur. Məqsəd muxtar respublikamızda əmlak və torpaq məsələləri ilə bağlı problemlərin həllində şəffaf, çevik və səmərəli xidmət göstərməklə əhalinin rahatlığını təmin etməkdir.

***Naxçıvan Muxtar Respublikası Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Komitəsinin mətbuat xidməti***

# Ölkəmizin və millətimizin gələcəyi naminə








### *Çətin sınaqlar qarşısında*
### *(1991-1995-ci illər)*

***Müstəqilliyini yenicə qazanmış dövlətimiz azadlığına qovuşsa da, başı bəlalardan qurtulmurdu. Azərbaycanın Şərqə açılan qapısı Naxçıvanda isə vəziyyət daha ağır idi. Azərbaycandan aralı düşmüş bu qədim diyar blokadanın çətinliklərinə sinə gərməyə çalışırdı. Həmin dövrdə çörək növbəsi, su qıtlığı, enerji çatışmazlığı və başqa problemlərlə mübarizə aparan naxçıvanlılara o çətin günlərdə övladını oxutmaq, təhsil vermək, bəlkə də, heç düşündürmürdü. Çünki onlar üçün hələlik bir amal var idi: əl-ələ verib Naxçıvanı qorumaq. Ancaq bütün çətinliklərə baxmayaraq, o dövrdə Naxçıvan Muxtar Respublikasına rəhbərlik edən ümummilli lider Heydər Əliyev bu sahəni diqqətdə saxlayırdı.***

Muxtar respublikada bir neçə təhsil müəssisəsinin fəaliyyətə başlaması, 1993-cü ildə 95 gəncin xarici dövlətlərə oxumağa göndərilməsi bunu sübut edir. Hətta ulu öndərin təşəbbüsü ilə Şahbuzun sərhəd kəndi olan Şadada məktəb binasının tikintisinə start verilir (təəssüf ki, ulu öndər Bakıya getdikdən sonra tikinti dayandırılır). 1992-ci ildə Naxçıvan qarnizonu nəzdində orta məktəbin yaradılması haqqında verilən qərar da təqdirəlayiq hal kimi böyük əks-səda doğurmaqla hərbçi ailələrinə və onların övladlarına göstərilən qayğının təzahürü idi.

Ən böyük tədbirlərdən biri isə ali məktəblərə qəbul imtahanlarının Naxçıvanda keçirilməsi oldu. Maddi imkansızlıq ucbatından Bakı şəhərində imtahan verməyə gedə bilməyən gənclərimizin yollarına işıq tutulmuşdu. Bəli, ulu öndər təhsil sahəsi də başda olmaqla bir çox problemləri yoluna qoymağa çalışırdı. Ancaq ümummilli lider Azərbaycanın döyünən ürəyi olan təkcə Naxçıvan üçün deyil, bütöv Azərbaycana gərəkli bir siyasətçi idi. Azərbaycan xalqı da bunu yaxşı başa düşərək Onu hakimiyyətə çağırırdı. Ulu öndər xalqın səsinə səs verdi. 1993-cü ildə ümummilli liderimiz Heydər Əliyev siyasi hakimiyyətə qayıdaraq Azərbaycan Respublikasının Prezidenti seçildi.

### *Etiraz səsləri ucalır, yaxud dərsdən yayınan şagirdlər...*

Təəssüf ki, ulu öndər Heydər Əliyev Bakıya getdikdən sonra Naxçıvanda vəziyyət daha da ağırlaşdı. Naxçıvanı əmanət etdiyi vəzifəli insanlar öz şəxsi maraqlarını düşünərək muxtar respublikanın problemlərinin həlli üçün heç bir addım atmırdılar. Həmin dövrü 1999-cu ilin oktyabrında muxtar respublikada səfərdə olan ulu öndər Heydər Əliyev belə xarakterizə edirdi: ***“Biz həmin ağır günlərdən çıxdıq, amma yenə də ürəyim Naxçıvanda idi ki, Naxçıvan necədir, nə təhərdir. İmkan daxilində telefonla zəng vurub maraqlanırdım. Amma təəssüflər olsun ki, o dövrdə, mən gedəndən sonra Naxçıvanda da nizam-intizam pozuldu, işlər zəiflədi”.***

Bu zəiflik, intizamsızlıq təhsil sahəsində özünü daha qabarıq göstərirdi. Ordubad rayonunda təhsildə baş verən özbaşınalıq haqlı olaraq rayon sakinlərinin etirazına səbəb olurdu. Təhsildən xəbəri olmayanlar məktəb direktoru təyin edilirdi. Nüsnüs, Əylis, Sabirkənd, Dəstə və başqa kəndlərdə narazılıq artırdı. Bu narazılıq təkcə Ordubadda deyil, bütün rayonlarımızda özünü göstərirdi. Amma bu insanların səsinə səs verən yox idi. 1994-cü ildə Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi vəziyyəti haqqındakı arxiv materiallarında məktəblərin yararsız halda olması, şagirdlərin dərsliklərinin çatışmaması xüsusilə qeyd olunur. Bunlar dərd yarı. Ən faciəvi vəziyyətlərdən biri isə uşaqların pis vərdişlərə yiyələnməsi, onlar tərəfindən cinayət hadisələrinin törədilməsi və başqa bu cür hallar gələcəyimizin böyük təhlükədə olduğunu göstərirdi.

1994-cü il aprelin 25-də Naxçıvan Muxtar Respublikası Ali Məclisində keçirilən müşavirədə məktəblərin müxtəlif xidmət sahələrində işə cəlb olunması gündəmə gətirilsə də, bu problemlərin aradan qaldırılması üçün heç bir əməli addım atılmadı. Vəziyyət isə daha da ağırlaşırdı. Bu şəraitdə təhsil almaq heç də asan deyildi. Elə olurdu ki, uşaqlar həftələrlə məktəbə getmirdilər. Bəli, o zamanlar təhsilə göstərilən diqqət və qayğıdan danışmaq belə olmazdı. Məhz ona görə o illərdə “Gələcəyimiz təhlükə altındadır”, “Təhsil qayğı istəyir”, “Ordubadda yeni “kəşf”, “Şagird dəftər istəyir” və başqa yazılar mətbuat səhifələrində yer alırdı. Həmin yazılardan aydın olur ki, o illərdə muxtar respublikanın təhsili hansı vəziyyətdə idi. Həmin illərin məktəbliləri adi bir şagird dəftərinə həsrət qalmışdı.

### *Təhsildə geriləməyə qətiyyən yol vermək olmaz*
### *(1996-2005-ci illər)*

1995-ci ilin dekabr ayı muxtar respublikanın tərcümeyi-halına silinməz və unudulmaz tarix kimi yazıldı. Həmin ay bir yol seçildi: Heydər Əliyev yolu. Və illər keçdi, böyük zəhmət, Heydər Əliyev yoluna sədaqət, sabaha cavabdehlik hissi, güclü təşkilatçılıq məharəti və idarəçilik qabiliyyəti, Vətənə, xalqa bağlılıq Naxçıvanı inkişafa qovuşdurdu. Ulu öndər Heydər Əliyev deyirdi: “İnsan təhsilinin əsasını orta məktəbdə alır. Ona görə də bütün təhsil sistemində orta məktəb xüsusi yer tutmalıdır”. Beləliklə, 1996-cı ildən “Təhsildə geriləməyə qətiyyən yol vermək olmaz” devizi əsas götürüldü. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri hörmətli Vasif Talıbov 1996-cı ilin may ayında keçirilən müşavirədə təhsil işçilərinin qarşısında mühüm vəzifələr qoyaraq dedi: ***“Bu gün böyüməkdə olan nəsil Azərbaycanın gələcəyidir. Onların təhsildən ayrı düşməsi Azərbaycanın gələcəyinə böyük zərbədir. Bu övladlar sizin, bizim övladlarımızdır. Onların təlim-tərbiyəsinin bütün ağırlığı da bizim üzərimizə düşür. Ona görə də biz sizinlə birlikdə böyüməkdə olan nəslin öz müstəqil respublikasına layiq olan övladlar kimi yetişməsində əlimizdən gələni əsirgəməməliyik”.***

Həmin dövrdən muxtar respublikada çoxşaxəli təhsil quruculuğuna start verildi, tikintisi yarımçıq qalmış məktəb binalarının inşası davam etdirildi. 1996-cı il sentyabrın 2-də Babək rayonunun Cəhri kəndində yeni istifadəyə verilən məktəb binasının açılışında Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yaşadığımız ağır dövrdə iki sahəyə – orduya və təhsilə diqqəti yönəltməyin vacibliyini önə çəkdi. Qeyd edildi ki, belə olmazsa, bizim gələcəyimiz şübhə altında qalar. Orduya ona görə diqqət yetirməliyik ki, respublikamız Ermənistanla müharibə vəziyyətindədir. Biz ərazi bütövlüyümüzü, sərhədlərimizin toxunulmazlığını təmin etməliyik. Təhsilə ona görə diqqət yetirməliyik ki, uşaqlar bizim gələcəyimizdir. Bu iki sahəyə biz qayğını heç vaxt əsirgəməməliyik.

### *İlk olaraq sərhəd kəndlərində məktəblərin tikintisinə başlanıldı*

Məlum hadisələrdən sonra döyüş meydanına çevrilən Sədərək rayonu ən ağır günlərini yaşayırdı. Bəlkə də, məktəb binasına ən çox ehtiyac duyulan yaşayış məntəqələrimizdən biri də bu bölgə idi. Sual oluna bilər: bu qədər yaxın ərazilər varkən Naxçıvan şəhərindən kilometrlərlə uzaq olan bir rayonun balaca kəndində – Qaraağacda məktəb binasına ehtiyac vardımı? Bəli, buna ən çox elə məhz sədərəklilərin ehtiyacı vardı. Çünki məhz bu bölgədə ölkəmizin digər regionlarından da gələnlər igidliklə vuruşaraq sərhədlərimizi qorudular. Qan tökdü, şəhid verdi, amma Sədərək təslim olmadı. Məhz o şəhid balalarının üzünü güldürmək, az da olsa, ürəklərinə su səpmək ən böyük addımlardan biri idi. Kənddə 80 yerlik 6 sinif otağından ibarət məktəb binası tikildi. Muxtar respublika rəhbərinin 1996-cı ilin oktyabr ayında Sədərəyin Qaraağac kəndinə gedərək burada kənd sakinləri ilə görüşməsi, yeni məktəb binasının açılışında iştirak etməsi sədərəklilərin itirilmiş ümidlərini özünə qaytardı. Bir ay sonra inşası illərdir, yarımçıq qalmış Şahbuz rayonunun Şada kəndində yeni məktəb binası istifadəyə verildi. İlk olaraq sərhəd kəndlərində məktəb binalarının istifadəyə verilməsi təsadüfi deyildi. Məktəb binasının açılış mərasimində muxtar respublika rəhbəri bu məsələni önə çəkərək dedi ki, belə kəndlərdə məktəb tikmək, sosial obyektlərə qayğı göstərmək ermənilərə bir daha nümayiş etdirir ki, biz Naxçıvanda möhkəm oturmuşuq və quruculuq işləri ilə məşğuluq. Bəli, tikilən yeni məktəb binaları düşmənə gözdağı idi və onların sayı durmadan artırdı. Ali Məclis Sədrinin məktəb binalarının açılışında vurğuladığı bir məqam var idi: ***“Bizim bugünkü qurub-yaratmaq işimizin önündə məktəb tikintisi durur. Ola bilər ki, muxtar respublikanın hansısa bir tikinti sahəsində geriləməmiz var. Lakin məktəb tikintisi sahəsində heç bir geriləməyə yol vermək olmaz. Bu gün belə məktəblərdə təhsil alan gənclər Azərbaycanın gələcəyinin təminatçısıdırlar”.*** 1997-ci ildə Babək rayonunun Kültəpə və Çeşməbasar kəndlərində yeni məktəb binalarının tikintisinə başlanıldı. Culfa rayonunun Kırna kəndində də inşası yarımçıq qalan məktəb binası sentyabr ayında istifadəyə verildi. Oktyabr ayında isə yeni məktəb binasının sevincini Babək rayonunun Güznüt kənd sakinləri yaşadılar. O kənd ki yeni məktəb binasının tikintisini uzun illərdir, gözləyirdi.

Muxtar respublikada yeni məktəblərin tikintisi ilə yanaşı, təhsilin inkişafına stimul verən, təhsil işçilərini işləməyə həvəsləndirən tədbirlər də diqqət mərkəzində saxlanılırdı. 1998-ci il avqust ayının 26-da Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrında “Naxçıvanda ilk məktəb və təhsilin inkişaf yolu” mövzusunda konfrans keçirildi.

### *Təşəbbüskarlıq və fədakarlıq...*

Muxtar respublikada 1996-2000-ci illərdə 8 min şagird yerlik 23 orta məktəb binası tikilib, 19 məktəb binası isə əsaslı təmir edilib. Blokadanın çətinliklərinə baxmayaraq, bu qədər məktəb binasının tikilməsi üçün yollar axtarılıb, fədakarlıq göstərilib. 1999-cu ilin oktyabr ayında Naxçıvan Muxtar Respublikasının 75 illiyinə həsr edilmiş təntənəli yubiley tədbirində ulu öndərin söylədiklərini naxçıvanlılar yaxşı xatırlayır: ***“Məni düz başa düşün. Azərbaycanın hər yeri mənim üçün əzizdir. Amma əgər Naxçıvanda belə ağır vəziyyətdə məktəb binası tikilə bilirsə, – buraya daş gətirmək mümkün deyil, burada kərpic zavodu, mişardaşı və başqa şeylər yoxdur, – əgər xəstəxana, universitet binaları tikilirsə, bəs başqa yerdə niyə tikilmir? Deməli, bu, təşəbbüsdən, fədakarlıqdan asılıdır”.***

### *Kəmiyyətdən keyfiyyətə doğru konkret addımlar*

Ali Məclisin Sədri yeni məktəb binalarının açılış mərasimində, hər şeydən öncə, pedaqoji kollektivlərin qarşısında gənclərin vətənpərvər ruhda böyüməsi tələbini birinci dərəcəli vəzifə kimi qoyurdu.

Bu illər ərzində ən mühüm tədbirlərdən biri də təhsil işçilərinin iştirakı ilə keçirilən müşavirələr idi. Belə müşavirələrdən biri 2002-ci il aprelin 9-da Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrında keçirilib. Bu müşavirədə təhsildə məktəbin, ailənin və cəmiyyətin rolu ön plana çəkilərək qeyd olunub ki, cəmiyyətin gələcəyi, xalqın gələcəyi olan gənclik bu gün məktəbdə formalaşır, yetişir. Keyfiyyətli təhsilə bərabər, onu formalaşdıran mənəvi mühit məktəbdir, ailədir, cəmiyyətdir. Şübhəsiz ki, mənəvi tərbiyə məsələsində məktəblə, müəllimlə bərabər, ailənin rolu da əsasdır, vacib şərtlərdən biridir. Burada təhsilin keyfiyyətinin yüksək olması mütləqdir. Əks halda qarşıya qoyulan vəzifələrə nail olmaq mümkün deyil.

2005-ci ildən muxtar respublika təhsili kəmiyyətdən keyfiyyətə doğru keçid dövrünü yaşamağa başlayır. Qəbul imtahanlarında yaxşı nəticə göstərən məktəblərin sayı artır, zəif nəticə göstərən məktəblərin isə sayı azalırdı. Doğma diyarda elə bir valideyn tapa bilməzdin ki, övladının oxumasında maraqlı olmasın. Çünki artıq valideyn bilirdi ki, onun övladının yaxşı oxuması üçün hər cür şərait var. Sərt qış dərsləri pozmurdu, əvvəlcədən görülmüş tədbirlər tədris prosesinin normal keçməsinə şərait yaratmışdı. Bu gün qazanılan uğurların təməli məhz o illərdə qoyulub.

### *Muxtar respublikada təhsildə yeniliyin tətbiqi*
### *(2006-2015-ci illər)*

Bu illər ərzində məktəb binalarının tikintisi sürətlə davam etdirilib, əvvəllər tikilmiş məktəb binaları da yenidən qurulub, müasir avadanlıqlarla təchiz olunub. Əgər Şahbuz rayonunun Şada kəndindəki məktəb binası 1996-cı ildə istifadəyə verilmişdisə, bu məktəb üçün yenidən müasir bina tikilərək 2008-ci ildə istifadəyə verilib. Müsbət cəhətlərdən biri isə inşaat işləri aparılarkən gələcək perspektivlərin nəzərə alınmasıdır. 60-70 şagirdin oxuduğu kəndlərdə azı 110-120 şagird yerlik məktəb binalarının tikilməsi xüsusi qeyd olunmalıdır. Son 10 ildə Naxçıvan Muxtar Respublikasında 160-dan çox məktəb binasının tikilməsi və ya yenidən qurulması təhsilə göstərilən qayğının bariz ifadəsidir. Bu gün muxtar respublikanın ən ucqar dağ kəndlərində – Tividə, Behrudda, Parağada, Yuxarı Qışlaqda, Havuşda, Şahbulaqda, Ərəfsədə, Nəhəcirdə, Ləkətağda, Boyəhmədə, Ağbulaqda, Şadada və onlarla belə yaşayış məntəqələrində müasir tələblərə cavab verən məktəb binaları fəaliyyət göstərir. Bir neçə ildən sonra muxtar respublikada müasir tələblərə cavab verməyən məktəb binası qalmayacaq. Hazırda bir neçə yaşayış məntəqəsində bu işlər sürətlə davam etdirilir.

O da qeyd olunmalıdır ki, muxtar respublikada tikilən məktəb binalarında fənn kabinələrinin və laboratoriyaların müasir səviyyədə qurulması diqqət mərkəzində saxlanılır. Kimya, biologiya və fizika laboratoriyalarında quraşdırılan müxtəlif funksiyalı cihaz və aparatlar həmin fənlər üzrə dərslərin tədrisi zamanı təcrübələrin aparılmasına, praktik biliklərin zənginləşdirilməsinə imkan verir. Humanitar və dəqiq elmlərin tədrisi ilə yanaşı, şagirdlərin hərbi biliklərinin artırılması, onların vətənpərvərlik ruhunda tərbiyəsi də diqqətdən kənarda qalmayıb. Bu sahə üzrə həyata keçirilən tədbirlər, yarışlar, müsabiqələr məktəbli gənclərin ibtidai hərbi hazırlığına, vətənpərvərlik hissinin gücləndirilməsinə müsbət təsir göstərir. Xüsusi əhəmiyyətə malik olan “Şahin”, “Sərhəd” hərbi idman, eləcə də “Vətənin müdafiəsinə hazıram” poliatlon çoxnövçülüyü üzrə idman oyunlarında muxtar respublikanın ümumtəhsil məktəblərinin şagirdləri davamlı uğurlara imza atırlar.

Məktəblərin hamısı pulsuz dərsliklərlə təmin olunub. 2005-ci ildən indiyədək 2.152.243 nüsxə dərslik ümumtəhsil məktəblərinə verilib ki, onların da 132.761 nüsxəsi 2015-ci ilin avqust ayında gətirilib. Bundan başqa, 627.643 nüsxə latın qrafikası ilə çap olunmuş bədii ədəbiyyat, jurnal və məcmuə təhsil müəssisələrinin kitabxanalarına təqdim edilib.

Ən mühüm nailiyyətlərdən biri də məktəblərdə informasiya-kommunikasiya texnologiyalarının tətbiqidir. Bu da tədrisin məzmunca yeniləşməsinə imkan yaradıb. Muxtar respublikada təhsil ocaqlarının kompüterləşdirilməsi son illərin nailiyyətlərindəndir. Orta məktəblərdə şagirdlərin bu sahəyə olan maraqlarının səmərəli istiqamətləndirilməsi diqqət mərkəzində saxlanılır, informatika dərslərinin tədrisində keyfiyyət amilinə xüsusi fikir verilir. Əgər 1992-ci ildə ümumtəhsil məktəblərinin yalnız 8-də kompüter vardısa, hazırda məktəblərin hamısında, ümumilikdə, 3700 dəst kompüter quraşdırılıb ki, onların 84 faizi internetə qoşulub. Qeyd etmək lazımdır ki, 1992-ci ildə muxtar respublikamızda 4646 şagirdə bir kompüter düşürdüsə, hazırda 12 şagird bir kompüterdən istifadə edir. Eyni zamanda ümumtəhsil məktəblərində təhsil alan 800-dən çox əlaçı şagirdə Ali Məclisin Sədri tərəfindən kompüter hədiyyə olunub və hər il bu iş davam etdirilir. Bu gün Naxçıvanın ən ucqar dağ kəndində təhsil alan məktəbli Avropanın inkişaf etmiş ölkələrinin gəncləri kimi kompüterdən və internetdən sərbəst şəkildə istifadə etmək imkanına malikdir.

*(Ardı var)*

**✍ Sara ƏZİMOVA**

**Yazı “Naxçıvan: müstəqillik illərində” gənclər arasında yaradıcılıq müsabiqəsinə təqdim olunmaq üçündür**

# Tingçilik təsərrüfatı aparılan yaşıllaşdırma tədbirlərinə öz töhfəsini verir

***Ekoloji tarazlıq o yerdə qorunur ki, insanlar öz həyatlarının təbiətdən asılı olduğunu dərk edirlər. Bu dərketmə isə ekoloji təfəkkürə yüksək səviyyədə yiyələnmiş insanların düşüncəsində və bu düşüncənin məhsulu olan əməli fəaliyyətində özünü doğruldur. Bu gün mübaliğəsiz demək mümkündür ki, yalnız sağlam təfəkkürə malik ölkələrdə təbiətə hərtərəfli qayğı göstərilir, yaşıllıqlar qorunur. Çünki yaşıl örtüklər ərazilərin gözəlliyini artırmaqla yanaşı, canlı aləmin təbii ehtiyaclarının təmin olunmasına da öz töhfəsini verir. Əgər yaşıllıqlar olmazsa, təbiətin də ahəngi pozular, təbii proseslər öz axarından çıxar. Məhz buna görə də ta qədim dövrlərdən ağac əkmək, yaşıllıqları qorumaq və artırmaq insanların təbiət qarşısında ən böyük və müqəddəs vəzifəsi hesab olunmuşdur.***



Orta və yaşlı nəslin yaxşı xatirindədir ki, ötən əsrin sonlarında Naxçıvan Muxtar Respublikasının blokada vəziyyətinə salınması, eyni zamanda məlum ictimai-siyasi vəziyyətin getdikcə mürəkkəbləşməsi təbiətə də təsirsiz ötüşməmişdir. Qışın sərt soyuğundan qorunmaq üçün yerli əhali minbir zəhmətlə qayğısını çəkdiyi ağacların böyük bir qismini kəsməli olmuşdu. Həmin dövrdə muxtar respublika müharibə fəlakəti ilə bərabər, ekoloji fəlakətlə də üz-üzə qalmışdı. Yalnız ümummilli lider Heydər Əliyevin doğma yurda qayıdaraq Naxçıvanı, ümumilikdə isə Azərbaycanı mürəkkəb vəziyyətlərdən xilas etməsi bu kimi fəlakətlərin qarşısını almışdır. Bir nüansı yaddan çıxarmaq olmaz ki, təbiət də insan kimi Ulu Tanrı tərəfindən bir yaradılışdır. Müharibələr, işğallar insanlara nə qədər zərər vurursa, təbiətə də bir o qədər ziyan vurur. Buna görə də sabitlik olmayan yerdə təbiətin, yaşıllıqların qorunmasından da söhbət gedə bilməz. Məhz ulu öndərimiz tərəfindən muxtar respublikada həmin dövrdən yaradılmış sabitlik bir çox sahələr kimi, qədim diyarımızın təbiətinə də böyük təsir göstərmişdir. Naxçıvan Muxtar Respublikasında ötən illərdə davam etdirilmiş bu ekoloji siyasət isə muxtar respublikanın təbii zənginliklərinin qorunmasında, xüsusilə yaşıllıq sahələrinin xeyli artırılmasında əhəmiyyətli rol oynamışdır. Qeyd etmək lazımdır ki, muxtar respublikada təbiətin qorunmasına lap əvvəldən kompleks yanaşma tətbiq olunmuşdur. Belə ki, hər bir ağacın əkilib-böyüdülməsinə, mövcud meşə massivlərinin bərpasına, yeni yaşıllıqların salınmasına rəsmi səviyyədə münasibət ortaya qoyulmuş, görülən işlər kampaniya xarakteri daşımamışdır. İməciliklərin muxtar respublikada ümumxalq işinə çevrilməsinin nəticəsidir ki, bir zamanlar 0,6 faiz yaşıllıq ərazilərinə malik Naxçıvanda hazırda yaşıl örtüklü sahələr ümumi ərazinin 12 faizini ötmüşdür. Ötən dövr ərzində təkcə sututar ərazilərdə deyil, heç zaman ağac əkilməyən sahələrdə belə, yaşıllıqlar salınmışdır. Müasir əkinçilikdə ən mütərəqqi üsullardan sayılan damcı üsulu ilə suvarma muxtar respublikada yaşıllıqların artırılmasında mühüm rol oynamışdır.

Təbii ki, ağac əkinlərinin aparılmasında vacib məsələlərdən biri də Naxçıvanın özünəməxsus, bu diyarın iqlim xüsusiyyətlərinə uyğun tinglərin yetişdirilməsidir. Tarixən Naxçıvan diyarı özünün dadlı meyvələri, sərt iqlimə dözümlü müxtəlif ağac növləri ilə fərqlənmişdir. Məhz bu ənənəviliyi qorumaq, eyni zamanda müxtəlif növ ağac tinglərinə olan ehtiyacı ödəmək məqsədilə Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin tabeliyində Meşə Tingliyi Müəssisəsi yaradılmışdır. Müəssisənin hazırkı fəaliyyəti ilə yaxından tanış olmaq üçün bu dəfə üz tutduq müəssisənin tingyetişdirmə sahələrinə. Meşə Tingliyi Müəssisəsinin direktoru Ədalət Məmmədova əvvəldən razılaşdığımız kimi adıçəkilən sahənin ərazisində görüşdük. Müsahibimiz bildirdi ki, bu müəssisənin yaradılmasında məqsəd muxtar respublika ərazisində aparılan yaşıllaşdırma tədbirlərində tingə olan tələbatın təmin edilməsi və regionun torpaq-iqlim xüsusiyyətlərinə uyğunlaşdırılmış tinglərin yetişdirilməsi olmuşdur ki, bunun da mühüm iqtisadi və ekoloji əhəmiyyəti vardır. Tingçilik müəssisəsinin yaradılması muxtar respublika ərazisində aparılan yaşıllaşdırma tədbirlərinin səmərəliliyini artırmaqla yanaşı, eyni zamanda qonşu ölkələrdən ting idxalının azaldılması ilə iqtisadi səmərəli olmuşdur. Tingçilik müəssisəsində əvvəllər, əsasən, meşə tinglərinin yetişdirilməsinə üstünlük verilirdi. Çünki Naxçıvan ərazisinin mövcud təbii iqlim şəraiti, relyef xüsusiyyətləri və əsasən də təbii meşə ehtiyatlarının az olması bu regionda ən mühüm ekoloji amil kimi meşə ehtiyatlarının artırılmasını zəruri edirdi. Muxtar respublikanın təbii su potensialı, torpaqların münbitliyi (eroziya, şoranlaşma, səhralaşma, torpaq sürüşməsi və sair) nəzərə alınaraq bu xüsusiyyətlərə cavab verən meşə tinglərinin, o cümlədən göyrüş, ağcaqayın, akasiya, katalpa, iydə, tut kimi ağacların yetişdirilməsi kənd təsərrüfatı əkinləri üçün yararsız olan torpaqlarda yaşıllıq zolaqlarının yaradılmasında əhəmiyyətli rol oynamışdır. Xüsusilə sürüşməyə meyilli, relyefi dəyişkən ərazilərdə terras üsulu ilə salınmış meşə massivləri hazırda əlverişli ekoloji mühit yaratmışdır.

Tingçilik sahələrində Naxçıvan iqlimi üçün xarakterik olan dekorativ, həmişəyaşıl ağacların yetişdirilməsi sahəsində də işlər aparılır. Ting yetişdirilməsində lazım olan toxum tədarükü də elə yerli ehtiyatlar hesabına təmin olunur. Bunun üçün müəssisənin fəaliyyətində toxum tədarükünə xüsusi önəm verilir. Meyvələrin vegetasiya dövrünə uyğun olaraq toplanan toxumlar çeşidlənir, qurudulur, dərmanlanır və xüsusi şəraitdə saxlanılır. Ting yetişdirilməsində, əsasən, toxumla əkinə üstünlük verilsə də, çilik-qələm kökləndirməsi işləri də aparılır. Müəssisənin əkin sahələrində aqrotexniki işlərin düzgün aparılması, gübrələrdən istifadə edilməsi, mütərəqqi suvarma sistemlərinin tətbiqi nəticəyə öz müsbət təsirini göstərir.

Həmsöhbətimiz vurğuladı ki, müəssisə tərəfindən həyata keçirilən tədbirlərdə ekoloji amillə yanaşı, iqtisadi səmərəlilik də əsas götürülür. Naxçıvan Muxtar Respublikası Ali



Məclisi Sədrinin 2012-ci il 14 fevral tarixli Sərəncamı ilə təsdiq olunmuş “2012-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramı” tingçilikdə yeni mərhələnin başlanmasına stimul vermişdir. Naxçıvanın tarixi meyvəçilik ənənələrini yaşatmaq üçün yeni meyvə bağlarının salınması üçün meyvə tinglərinin yetişdirilməsinə diqqət daha da artırılmışdır. Hazırda tingçilik müəssisəsinin təsərrüfat ərazilərində ərik, badam, alma, cəviz, alça, gilənar, tut və sair meyvə tingləri yetişdirilir. Dövlət proqramından irəli gələn vəzifələrin icrası istiqamətində görülən işlərin nəticəsidir ki, son 3 il ərzində müəssisənin təsərrüfat sahələrində 1 milyondan artıq meyvə tingi yetişdirilmişdir.

Müəssisənin tingyetişdirmə sahələri barədə də məlumat verən Ədalət Məmmədov bildirdi ki, hazırda Meşə Tingliyi Müəssisəsinin Babək rayonunda, Naxçıvan şəhərinin Tumbul kəndi ərazisində və Naxçıvan çayının sağ sahilində olmaqla, 13 hektara yaxın tingyetişdirmə sahəsi var. Bu sahələrdə hər il 300-350 min ədəd ting yetişdirilir. Müsahibimiz onu da qeyd etdi ki, oktyabr ayının 31-dən başlayaraq muxtar respublikada mövsümi ağac əkininə başlanılmışdır. Müəssisə tərəfindən bu əkinlərin keçirilməsi üçün 35 mindən çox ting paylanılmışdır. Hazırda sahələrdə 250 mindən yuxarı əkilmək üçün ting vardır ki, bunun da 70 minə yaxını meşə, 12 minə yaxını həmişəyaşıl, qalanı isə müxtəlif meyvə tingləridir.

Müəssisənin Babək qəsəbəsi ərazisindəki tingyetişdirmə sahəsi ilə yaxından tanış olduq. Böyük bir qismini meyvə ağacları təşkil edən bu sahədə hər bir tingə qayğı ilə yanaşılır. Bir neçə ildən sonra bar verəcək bu tinglər qocaman ağaca çevrilərək yeni tinglərin yaranmasına vəsilə olacaq...

***Bəli, təbiət ona göstərilən qayğını heç zaman unutmur, çəkilən zəhmətin əvəzini artıqlaması ilə ödəyir. Nəticədə isə qazanan insan və təbiətin özü olur. Ağac əkməyi, onu böyütməyi özünə müqəddəs borc bilən insanlar isə bu təbii qanunauyğunluğa əməl edərək gələcəyimizin daha sağlam təməllər üzərində qurulmasına töhfə verirlər.***

**Səbuhi HƏSƏNOV**

# Ordubad rayonu payız-qış mövsümünü uğurla başa vuracaq

***Avqustun 28-də Naxçıvan Muxtar Respublikası Ali Məclisində 2015-2016-cı ilin payız-qış mövsümünə hazırlıq və qarşıda duran vəzifələrlə əlaqədar keçirilmiş müşavirədən irəli gələn vəzifələrin icrası istiqamətində Ordubad rayonunda da lazımi tədbirlər həyata keçirilib.***

Rayon üzrə bu ilin payız-qış mövsümündə yeni tikililərlə birlikdə 91 müasirtipli istilik sistemi fəaliyyət göstərir. Onlardan 72-si qazanxanatipli, 19-u isə kombitipli istilik sistemləridir. Kommunal Müəssisələri Kombinatı tərəfindən 9 qazanxana vasitəsilə 15 binada 414 mənzil istiliklə təmin olunur. Təhsil sahəsi üzrə 26 qazanxana, mədəniyyət sahəsi üzrə 6, digər təşkilatlar üzrə isə 59 müasir istilik sistemi fəaliyyət göstərir. Bu barədə məlumat qəzetimizə Ordubad Rayon İcra Hakimiyyətindən verilib.

Məlumatda bildirilir ki, rayon Kommunal Müəssisələri Kombinatı tərəfindən yaşayış binalarında qışa hazırlıqla əlaqədar mənzillərin qızdırılması üçün istismarda olan 9 qazanxanaya baxış keçirilib, nasazlıqlar aradan qaldırılıb. Digər qazanxanalar da qış mövsümü üçün tam hazır vəziyyətə gətirilib. Bütün qazanxanalarda texniki təhlükəsizlik təmin edilib və işçilər təhlükəsizlik qaydaları ilə təlimatlandırılıblar. Xidmətedici heyətin peşə hazırlığını artırmaq məqsədilə ixtisas kurslarında təhsil almaları təmin edilib, onlara xüsusi geyimlər verilib.

2015-2016-cı tədris ilində 45 təhsil müəssisəsindən 26-sı müasir istilik sistemi, 16-sı isə neft sobası ilə qızdırılır. Məktəblərə şüşə, şifer, polietilen, neft sobaları və boruların verilməsi üçün sifarişlər qəbul olunub, müəyyən edilib ki, məktəblərdə 150 kvadratmetr şüşəyə, 300 şiferə, 50 metr polietilenə və 70 yanacaq sobasına ehtiyac vardır. Bunların da vaxtında alınaraq məktəblərə çatdırılması təmin edilib.

Ordubad Rayon Mərkəzi Xəstəxanası, onun əhatə etdiyi 12 kənd həkim ambulatoriyasında və 29 feldşer-mama məntəqəsində də mövsümlə əlaqədar tədbirlər görülüb. Onlardan mərkəzi xəstəxana, 5 həkim ambulatoriyası, 15 feldşer-mama məntəqəsi mərkəzləşdirilmiş istilik sistemi ilə təmin edilib. 3 həkim ambulatoriyası və 1 feldşer-mama məntəqəsinin şəbəkə qazı ilə, 4 həkim ambulatoriyası və 13 feldşer-mama məntəqəsinin ağ neftlə qızdırılması nəzərdə tutulub.

Ordubad Rayon Elektrik Şəbəkəsi tərəfindən payız-qış mövsümünə hazırlıqla əlaqədar 10 kilovoltluq hava xəttində 66 ədəd, 0,4 kilovoltluq hava xəttində 186 ədəd dayaq olmaqla, ümumilikdə, 252 ədəd yeni dayaq basdırılıb. İstismar müddəti bitmiş məftillər yenisi ilə əvəz olunub. 14 transformator yarımstansiyasında əsaslı, 21 transformator yarımstansiyasında cari təmir işləri aparılıb.



Payız-qış mövsümündə əhalini dayanıqlı elektrik enerjisi ilə təmin etmək məqsədilə Elektrik Şəbəkəsində mal-material ehtiyatı yaradılıb.

Digər bölgələrimiz kimi, Ordubad rayonunun da bütün yaşayış məntəqələri fasiləsiz olaraq təbii qazla təmin edilir. Rayon ərazisində qazla işləyən qazanxanaların və kombi cihazlarının normal işləməsi üçün bütün tədbirlər görülüb, cihazlar texniki baxışdan keçirilərək saz vəziyyətə gətirilib. Ötən müddətdə rayon üzrə müxtəlif səbəblərdən korroziyaya uğramış 1591 metr qaz xətti yenisi ilə əvəz olunub və 2669 metr yeni qaz xətti çəkilib. İstismar müddətini başa vurmuş qaz sayğacları dəyişdirilib. Bundan başqa, yeni tikilən 43 evə qaz xətti çəkilib. Payız-qış mövsümünə hazırlıqla bağlı qaz təsərrüfatına texniki baxış keçirilməsi, qaztənzimləyici qurğuların mövsümə uyğun tənzimlənməsinin təmin edilməsi, qaz xətlərindəki nasazlıqların vaxtında müəyyən edilməsi və sayğacdankənar istifadənin qarşısının alınması üçün müvafiq tədbirlər görülüb.

Rayon Rabitə İdarəsində 2015-2016-cı ilin payız-qış mövsümü ilə əlaqədar akkumulyator batareyaları yenisi ilə əvəz edilib, xətt təsərrüfatında olan dayaqlara baxış keçirilib, yararsız dayaqlar yeni dayaqlarla əvəz olunub, quyularda təmir işləri aparılıb, sıradan çıxmış quyu qapaqları dəyişdirilib və çatışmazlıqlar aradan qaldırılıb. ATS-lərdə yanacaq ehtiyatı yaradılıb, generatorlara texniki baxış keçirilib, Tivi, Bist, Şəhriyar və Üstüpü ATS-lərinin generatorları təmir edilib. Xətt təsərrüfatında təmir işləri üçün müxtəlif tutumlu kabellər yenisi ilə əvəz olunub.

*Həyata keçirilən tədbirlər belə deməyə əsas verir ki, Ordubad rayonu da növbəti payız-qış mövsümünü uğurla başa vuracaq.*

**Səbuhi HÜSEYNOV**

## Elmi məqalələrin hazırlanmasına qoyulan beynəlxalq tələblər müzakirə olunub



Naxçıvan Dövlət Universitetində ənənəvi olaraq müxtəlif səpkili seminarlar keçirilir. Ali təhsil ocağının müəllimlərinin, doktorant və dissertantlarının, magistrantlarının iştirak etdiyi növbəti seminar "Elmi-tədqiqat işlərinin yerinə yetirilməsi, elmi məqalələrin hazırlanmasına qoyulan beynəlxalq tələblər və etik problemlər" mövzusuna həsr olunmuşdu. Seminarda elmi məqalənin yazılması qaydaları, beynəlxalq elmi jurnallarda çap olunacaq məqalələrə qoyulan tələblər, bu sahədə peşəkarlıq, beynəlxalq standartlara uyğunlaşma və digər bu kimi məsələlərə aydınlıq gətirilib.

Seminarı rektor, AMEA-nın müxbir üzvü Saleh Məhərrəmov açaraq vurğulayıb ki, bu kimi tədbirlərin keçirilməsinin başlıca məqsədi elmin davamlı inkişafına, alimlərimizin elmi nəticələrinin dünya miqyasında tanıdılmasına nail olmaqdır. Bu, elmdə ilk addımlarını atan gənclər, elmi-tədqiqat işlərinə başlamış magistrant, doktorant və dissertantlar üçün böyük əhəmiyyətə malikdir. Vurğulanıb ki, elmi məqalə hər bir alimin müvəffəqiyyəti deməkdir. Elmi məqaləni lazımı səviyyədə yazmaq bacarığı elm sahəsində irəliləyən gənclərin gələcəkdə alim kimi formalaşmasına və yüksək uğurlar qazanmasına çox kömək edir.

Seminarda Türkiyənin Qars Qafqaz Universitetinin Cərrahiyyə kafedrasının professoru, universitetin Baytarlıq fakültəsi jurnalının baş redaktoru İsa Özaydın mövzu ilə bağlı məruzəsində məqalə hazırlanarkən sadə dil üslubundan istifadə edilməsi, məntiqi ardıcıllıq, qrammatik qaydalara riayət, tədqiqatın məqsədinin, cədvəl və rəqəmlərin məntiqli, dəqiq və aydın şəkildə təqdim edilməsi, daha çox sadə cümlələrə üstünlük verilməsinin məqalələrin asan qavranılması, onların daha oxunaqlı olması baxımından vacib şərtlərdən olduğunu bildirib.

Sonra məruzəçi universitet əməkdaşlarının ona ünvanlanan suallarını cavablandırıb.

Məlumat üçün qeyd edək ki, professor İsa Özaydın bir həftə müddətində Naxçıvan Dövlət Universitetində Baytarlıq təbabəti ixtisasının tələbələrinə cərrahiyyə dərslərini keçmək və onlarla birgə cərrahi əməliyyatlar aparmaq üçün dəvət olunub.

**Mina QASIMOVA**

## Vətənpərvərlik mövzusunda filmlərin nümayişi davam etdirilir

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fondu, Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi, Heydər Əliyev adına Hərbi Lisey tərəfindən kursantların vətənə məhəbbət, dövlətçiliyə sədaqət ruhunda tərbiyə olunması məqsədilə hazırlanmış tədbirlər planına uyğun olaraq, Naxçıvan şəhərindəki "Gənclik" Mərkəzində hərbi liseyin kursantları üçün vətənpərvərlik mövzusunda film nümayiş etdirilib. Azərbaycanın Milli Qəhrəmanı Səfiyar Behbudovun həyatına və döyüşlərdə göstərdiyi qəhrəmanlığa həsr olunan filmdə onun döyüş yoldaşları və ailə üzvlərinin söylədikləri xatirələr əsas yer tutur.

Xocalı faciəsindən sonra Səfiyar Behbudov Bərdə özünümüdafiə batalyonuna daxil olub. Qısa müddətdə o, komandir təyin edilib, Ağdam cəbhəsinə vuruşmağa göndərilib. 1992-ci il mart ayının 11-də erməni faşistlərinin Əsgəran yaxınlığındakı postumuza hücumu zamanı Səfiyar Behbudov döyüşə girir. O, burada döyüşçülərimizi xilas edir, özü isə Əsgəran istiqamətində irəliləyir. Qaraqaya deyilən ərazidə Səfiyar Behbudov erməni quldurlarının böyük bir qüvvəsinə rast gəlir. Lakin o, geri çəkilmir, bir müddət irəlilədikdən sonra ermənilər tərəfindən vurulur. Yaralı olduğundan onu əsir tutmaq ermənilər üçün çətin olmur. On gün əsirlikdə qalan Səfiyar Behbudov heç bir sirr vermədiyi üçün onun ayaqlarına məftil bağlayaraq üzərinə neft töküb yandırırlar. Gənc zabitin yanmış cəsədini 21 mart 1992-ci ildə çətinliklə almaq mümkün olur.

* * *

***Naxçıvan şəhərindəki 5 nömrəli tam orta məktəbdə Azərbaycan Respublikasının Milli Qəhrəmanı Şirin Mirzəyevə həsr olunmuş "Diqqət, mən 301-əm!" adlı sənədli film nümayiş etdirilib.***

33 dəqiqəlik sənədli filmdə Şirin Mirzəyevlə çiyin-çiyinə döyüşmüş zabitlərin və əsgərlərin xatirələri yer alıb. Nadir xroniki kadrların istifadə olunduğu filmin ssenari müəllifi Şirin Mirzəyevin əsgəri olmuş Qarabağ qazisi, tanınmış jurnalist Rey Kərimoğlu, rejissoru İlham Tumasdır. Naxçıvan Şəhər Gənclər və İdman İdarəsi, Təhsil Şöbəsi və "Gənc Vətənpərvərlər" İctimai Birliyinin birgə təşkilatçılığı ilə keçirilən tədbirdə 80-dən çox şagird iştirak edib.

## Məhdud fiziki imkanlı şəxslərin iştirakı ilə bədii yaradıcılıq müsabiqəsi keçirilir

***3 dekabr – Beynəlxalq Əlillər Günü münasibətilə Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin təşkilatçılığı ilə noyabrın 25-də Naxçıvan Dövlət Filarmoniyasında məhdud fiziki imkanlı şəxslərin iştirakı ilə bədii yaradıcılıq müsabiqəsinə başlanılıb.***

Tədbirdə Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi Aparatının Sosial təminat və əlillərin sosial müdafiəsi şöbəsinin müdiri Elçin Novruzov, Mədəniyyət və Turizm Nazirliyi Mədəniyyət üzrə Elmi-Metodik Mərkəzin direktoru Nizami Əzizəliyev çıxış edərək bədii yaradıcılığın növlərində, məhdud fiziki imkanlı şəxslərə göstərilən dövlət qayğısından, onların istedadlarının inkişaf etdirmək üçün yaradılan şəraitdən bəhs ediblər.

Vurğulanıb ki, məhdud fiziki imkanlı şəxslərin iştirakı ilə bədii yaradıcılıq müsabiqəsinin keçirilməsində məqsəd bu kateqoriyadan olan insanların istedad və qabiliyyətlərinin aşkara çıxarılması, onların yaradıcılıq əzmlərinin yüksəldilməsi, cəmiyyətə inteqrasiyasının təmin edilməsidir.

Müsabiqədə iştirak edən 25 nəfər "xalq çalğı alətlərində ən yaxşı ifaçı", "xalq mahnısını ən yaxşı ifa edən" və "ən yaxşı şeir qiraətçisi" nominasiyaları üzrə qabiliyyətlərini nümayiş etdirirlər.

Müsabiqə iki gün davam edəcək.

Sonda müsabiqənin qaliblərinə mükafat, digər iştirakçılara isə həvəsləndirici hədiyyələr təqdim ediləcək.

***Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidməti***

## İdmançılar üçün daha bir seminar başa çatıb

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi ilə muxtar respublikada fəaliyyət göstərən idman federasiyalarının birgə təşkil etdikləri məşqçi-müəllimlər və idmançılar üçün seminarlar davam etdirilir.***



Növbəti seminar noyabrın 24-25-də Hava və Ekstremal İdman Növləri Federasiyasının təşkilatçılığı ilə keçirilib. Dağ və ekstremal idman növləri üzrə təlim-məşqlərin ilk günündə iştirakçılar üçün nəzəri seminar təşkil edilib.

Seminarda ekstremal idman növləri üzrə təlimçilər Fərid Mustafayev və Əziz Əmirov çıxış ediblər. Onlar ilk olaraq nəzəri məlumatlandırmada məşqçi-müəllimlər, hakimlər və idmançılara dağ yürüşü texnikasında və idman dırmanmasında təlimlər barədə məlumat verib, tədris filmləri nümayiş etdiriblər. Nəzəri seminarda federasiyanın sədr müavini Azər Məmmədov, Gənclər və İdman Nazirliyinin Kütləvi bədən tərbiyəsi və idman şöbəsinin müdiri Taleh İbrahimov çıxış edərək bu növlərin muxtar respublikada geniş yayılması üçün görülən və görüləcək işlər barədə danışıblar.

Dünən isə idmançılar təlim-məşqləri "Əshabi-Kəhf Ziyarətgahı" Dini-Mədəni Abidə Kompleksində praktik olaraq davam etdiriblər. Təlimçilər Fərid Mustafayev və Əziz Əmirovun rəhbərliyi altında idmançılara dağa dırmanma, dağdan enmə və qayaya dırmanma, həmçinin dağa dırmanarkən öncədən görüləcək tədbirlər haqqında məlumat verilib.

Seminardan sonra həmsöhbət olduğumuz ekstremal idman növləri üzrə təlimçi Fərid Mustafayev bildirdi ki, bu idman növləri bir qədər ekstrim tələb edir: "Bunun üçün bu növlərlə məşğul olan idmançılar səbirli, təmkinli, eyni zamanda diqqətcil olmalıdırlar. Çünki hər hansı bir səhv faciə ilə nəticələnə bilər. Ona görə də seminarlarda, keçirilən tədbirlərdə bu barədə idmançılara dolğun məlumat verməyə çalışırıq. Bu gün Naxçıvanda da bu növlə məşğul olan idmançılarımıza dağa dırmanarkən hansı tədbirləri öncədən görmək lazım olduğunu bildirdik. Belə təlim-məşqlər muxtar respublikada növbəti aylarda da davam etdiriləcək".

Qeyd edək ki, praktik təlim-məşqlərdə Naxçıvan Muxtar Respublikası Hava və Ekstremal İdman Növləri Federasiyasının "İlandağ", "Qapıcıq" idman klubları və 8 komandanın 100-dən çox idmançısı iştirak edib.

**Ceyhun MƏMMƏDOV**

### Yeni nəşrlər

## Farmakoqnoziya botanikanın əsasları ilə



***Naxçıvan Tibb Kollecinin direktoru, tibb üzrə fəlsəfə doktoru İlhamə Mustafayevanın, AMEA Botanika İnstitutunun Etnobotanika laboratoriyasının rəhbəri, biologiya üzrə elmlər doktoru, professor Səyyarə İbadullayevanın, AMEA Bioresurslar İnstitutunun Biokimyəvi tədqiqatlar laboratoriyasının rəhbəri, biologiya üzrə fəlsəfə doktoru, dosent Ramiz Ələkbərovun, Gəncə Dövlət Universitetinin müəllimi, biologiya üzrə fəlsəfə doktoru, dosent Abbas İsmayılovun, Naxçıvan Dövlət Universitetinin Botanika kafedrasının dosenti, biologiya üzrə fəlsəfə doktoru Hilal Qasımovun və Naxçıvan Tibb Kollecinin müəllimi Şəfiqə Qasımovanın müəllifliyi ilə 648 səhifədən ibarət olan "Farmakoqnoziya botanikanın əsasları ilə" adlı fundamental kitab "Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyi tərəfindən nəşr olunmuşdur. Bu əsər Azərbaycan Respublikası Təhsil Nazirliyinin 13 fevral 2014-cü il tarixli qərarı ilə dərslik kimi nəşrə tövsiyə edilmişdir.***

Kitabın elmi redaktoru və məsləhətçisi AMEA Naxçıvan Bölməsi Bioresurslar İnstitutunun direktoru, Əməkdar elm xadimi, akademik Tariyel Talıbov, rəyçiləri biologiya üzrə elmlər doktoru, professor, Əməkdar elm xadimi Nemət Qasımov, kimya üzrə elmlər doktoru, AMEA-nın müxbir üzvü Əliəddin Abbasov və əczaçılıq üzrə elmlər doktoru, professor Məhbubə Vəliyevadır.

Müasir dövrdə tətbiqi ekologiya və botanikanın inkişafı, təbii mühit komponentləri üzərində uzunmüddətli qlobal və regional miqyasda proqnozlaşdırma və nəzarətin təşkili xüsusi yer tutur. Belə ki, insanların təbiətə qarşı yönələn antropogen təsirləri nəticəsində torpaq-bitki örtüyünün və landşaftların təbii quruluşunun kəskin dərəcədə pozulması eroziya proseslərini daha da gücləndirmişdir. Bu səbəbdən respublikanın flora və faunasının qorunub saxlanılması, gələcək nəsillərə çatdırılması üçün qoruqlar, yasaqlıqlar və milli parklar yaradılır.

Bu kitabdan daha səmərəli istifadə edilməsi üçün bitkilərin tanıdılması məqsədilə təbii şəraitdə çəkilmiş fotoşəkillər, hər bir bitkinin botaniki xarakteristikası, çiçək və meyvəvermə vaxtları, ekoloji şəraiti, coğrafi tipi, lokal və qlobal ərazilərdə yayılması haqqındakı məlumatlar kitabı daha da oxunaqlı edib.

Təqdim olunan kitabda dərman bitkilərinin toplanılması, qurudulması və saxlanılması qaydaları, vegetasiya fazasından asılı olaraq orqanlarından istifadə üsulları və tətbiqi verilməklə yanaşı, botaniki təsviri haqqında ilkin və vacib anlayışlar da şərh edilmişdir. Dünyada və o cümlədən Azərbaycanda yayılan və farmakopeyada qəbul olunan dərman bitkilərinin makrotaksonları son nomenklatur olan APG II və APG III sistemlərinə uyğun verilməklə yayılması və müalicəvi xüsusiyyətləri ətraflı şəkildə araşdırılmışdır.

Kitabda dərman bitkilərinin arealı, tərkiblərindəki bioloji fəal maddələrin farmakoloji təsiri, ilkin (əsas) və ikincili metabolizmin mahiyyəti, dərman bitkilərinin resurs bazası, bitki xammalının standartlaşdırılması, normativ sənədləri, analiz üsulları, xammalın qablaşdırılması, markalanması, daşınması, dərman məqsədilə istifadə edilən bitki orqanlarının analizi, dərman bitkilərindən mikropreparatların hazırlanması və istifadəsi haqqında geniş məlumatlar verilmişdir.

Kitabda dünyada və ölkəmizdə yayılan 200 növdən çox bitkinin adları Azərbaycan və latın dillərində verilməklə, botaniki təsviri, yayılması, ekologiyası, biokimyəvi və farmakoloji tərkibi, tətbiqi və istifadə üsulları haqqında ətraflı izahlar öz əksini tapmış, onların müvafiq xəstəliklərdə istifadəsi üçün konkret reseptlər də tövsiyə edilmişdir. Dərman bitkilərinin izahı ilə yanaşı, kimyəvi-farmakoloji və terminoloji xüsusiyyətləri də nəzərə alınmışdır. Farmakoloji terminlər, floramızda geniş yayılan xalq, elmi və ənənəvi təbabətdə daha çox istifadə olunan dərman bitkiləri haqqında məlumatlar əhatəli şəkildə verilmişdir.

Dərslik farmakoqnoziya fənni üzrə müxtəlif illərdə nəşr edilmiş digər dərsliklərdən fərqlənir. Belə ki, dərslik botanika bölməsinin verilməsi, bitkilərin botaniki xarakteristikası, coğrafi elementləri, ekoloji şəraiti, yayılması, toplanılması, qurudulma və saxlanılma qaydaları, standartlaşdırılması, kimyəvi, farmakoloji tərkibi və istifadəsi baxımından yeni müasir proqram əsasında yazılmışdır.

Müəlliflər yeni məlumatlara və dünya təcrübəsinə əsaslanaraq ölkəmizin dinamik inkişafını və florasının zənginliyini əsas götürməklə belə bir sanballı və qiymətli kitabın yazılmasına nail olmuşlar.

***Əliyar İBRAHİMOV***
***biologiya üzrə elmlər doktoru, professor***


ŞƏRQ qapısı
Baş redaktor: TURAL SƏFƏROV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Sara Əzimova
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 4020. Sifariş № 894